# “Qəm pəncərəsi”: nadanlığın ifşası

**1986-cı ildə çəkilən ikihissəli “Qəm pəncərəsi” filmi Cəlil Məmmədquluzadənin xatirəsinə ithaf olunmuşdu. Film “Danabaş kəndinin əhvalatları” və “Danabaş kəndinin məktəbi” əsərlərinin motivləri əsasında lentə alınmış və bu ekran əsərində görkəmli ədib, yazıçı, dramaturqun uşaqlıq illəri ilə bağlı hadisələr əks olunmuşdur.**



Mirzə Cəlil haqqında filmdə qəm pəncərəsindən boylanan uşağın ön plana çəkilməsi millətin gələcəyi üçün nigarançılığı göstərir. Filmin ssenari müəllifi və quruluşçu rejissoru Anar, rejissoru Rafiq Dadaşovdur. Rollarda Həsənağa Turabov, Elmira Şabanova, Nəsibə Zeynalova, Səyavuş Aslan, Həsən Məmmədov və başqaları çəkilmişlər. Film əsasən Cəfər Cabbarlı adına kinostudiyanın pavilyonunda, Bakının Digah kəndində, İçərişəhərdə, təbiət çəkilişləri isə əsasən Şamaxının Zarat kəndində, Qobustanda, Qaraçı karvansarasında, Lahıcda ekranlaşdırılmışdır.

...Yolayrıcında iki uşaqdan biri məktəbə, digəri isə nadanlığa gedir. Həmin səhnə Mərəzədə lentə alınmışdır. İnsanların toplaşıb “Xudaya, bizə yağış yetir” - deyərək dua etməsi, İsgəndərin məsciddə fransızca şeir deyib insanlardan ağlamalarını tələb etməsi də, cahilliyin geniş vüsət aldığı zamanı tənqid edirdi. “Ə, niyə ağlamırsız?...” Kəndlilərdən birinin “axı biz sən deyəni başa düşmürük” - deməsi ilə İsgəndərin cavab verməsi bir olur: “Bəs molla ərəbcə oxuyanda başa düşüb ağlayırsız?-..”

Ədibin filmdə göstərmək istədiyi əsas mətləb də bu idi: cahilliyin, nadanlığın ifşası!

***“Azərbaycan”***

Azərbaycan.- 2019.- 15 fevral.- S.10.